**Müasir təhsil sistemi inkişaf və transformasiyalar dövrünə qədəm qoymuşdur. Dəyişikliklərin baş verdiyi sahələr arasında təbabətin özülü hesab edilən insan anatomiyası xüsusi yer tutur. Bu elm ənənəvi olaraq anatomik preparatlar, atlas və mulyajlarla assosiasiya olunur. Lakin yeni rəqəmsal və interaktiv texnologiyaların tətbiqi ali tibb təhsili qarşısında yeni üfüqlər açır, tədris prosesini daha effektiv edir.**



# Heydər Əliyev Fondunun hədiyyəsi

Eləcə də müasir texnologiyaların tətbiqi tələbələrin vizual olaraq materialı daha da dərindən mənimsəməsinə xidmət edir.

Müasir texnologiyaların tətbiqi insan anatomiyasının tədrisində günün tələbidir, bu yolla tibbi kadrların, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini artırmaq, tələbə-gənclərin fundamental fənlərə marağının yüksəlməsinə nail olmaq mümkündür. Bu gün dünyada klassik, fundamental fənlər ən müasir texnologiyalarla zənginləşdirilir. Öz mövqeyi və tarixi dəyərlərə sadiqliyi ilə seçilən Azərbaycanda bu prosesin getməsi dünyanın bir çox ölkələrinə örnəkdir.

Prezident İlham Əliyevin dediyi kimi: "Ölkəmizin elmi və texnoloji potensialının gücləndirilməsi bizim başlıca prioritetlərimiz sırasındadır". Bu gün elm və təhsil innovasiyalarla birgə addımlayır, anatomiya tədrisi müasir alətlərə - interaktiv platformalara, 3-D modelləşməyə, rentgenanatomiyaya istinad etməyə başlamışdır. Təbii ki, anatomiyanın müasir dövrdə tədrisində rentgenanatomiyaya tələbat artmışdır. Anatomik strukturların rentgenoqrafiya və rentgenskopiya üsulları sayəsində əldə edilmiş şəkilləri ilə tələbələrin artıq ilk günlərdən tanışlığı, onların biliyinin daha da möhkəmləndirilməsi istiqamətində atılmış əhəmiyyətli addımdır, "canlı anatomiyanın" gələcək həkimlər tərəfindən mənimsənilməsi, orqanların normal görünüşünün bütün variasiyalarının dərk edilməsi onlara patoloji dəyişiklikləri fərqləndirmək və bununla da peşəkar fəaliyyətlərində diaqnostik səhvləri sıfıra endirmək imkanı verir. Tibbi vizualizasiya rentgen anatomiyasının mühüm aspektini təşkil edir, dərslik və atlaslardan əldə edilmiş biliklərin rəqəmsal rentgen aparatlarının köməyi ilə əldə olunmuş görüntülərlə sintezi gələcəyin həkimlərinə artıq ilk kursdan klinika abhavasına daxil olmağa, özünü həkim hiss etməyə, qoyacağı diaqnozun dəqiqliyinin məsuliyyətini anlamağa yardım edir. Tibbi təfəkkür bu üsulla formalaşır və bu formalaşmanın məhz insan anatomiyası kimi fundamental fənnin tədris edildiyi kafedrada baş verməsi olduqca mühümdür.



Keçən tədris ilinin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Azərbaycan Tibb Universitetinə gəlişi professor və müəllimlərimiz tərəfindən məmnunluqla qarşılandı. Görüş zamanı Leyla xanım Əliyeva universitetin İnsan anatomiyası və tibbi terminologiya kafedrasında tədris prosesi ilə yaxından maraqlandı, gələcək nəsil həkimlərinin ərsəyə gəlməsi üçün yaradılmış şəraitlə tanış oldu. Kafedramızla yaşıd olan və onun nəzdindəki muzeyə böyük maraq göstərdi, unikal eksponatların tarixçəsini dinlədi. Daha sonra Tədris Mərkəzində ən müasir tələblərə cavab verən mulyajları, anatomik planşeti və süni meyit preparatını nəzərdən keçirdi, problemlərimizlə maraqlandı, tövsiyələrini verdi.

Tarixi görüşün nəticəsi olaraq kafedramızın, ümumən universitetimizin kollektivi bu günlərdə möhtəşəm hadisənin sevincini yaşadı. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın elm və tədrisə, böyüməkdə olan gənc nəslə qayğısının təcəssümü olaraq Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrası ən yeni tələblərə cavab verə bilən rəqəmsal rentgen aparatı ilə təchiz edilmişdir. Bu, əlbəttə ki, kafedrada tədris prosesini və aparılan elmi işlərin səviyyəsini yeni mərhələyə yüksəltməyə, gələcək həkimlərin daha savadlı yetişməsinə dəyərli töhfədir. Dövlətimizin artan nüfuzunun, Prezident İlham Əliyevin dünya siyasi aləmində lider mövqeyinin nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, ali məktəblərimiz elm və texnikanın ən son nailiyyətləri ilə təchiz olunur, dünyanın ən iri elm və təhsil ocaqları ilə rəqabətə girir və onları üstələyir.

Yeni tədris ili qarşısında kafedramızın müasir rəqəmsal rentgen aparatı ilə təmin edilməsinə görə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya təşəkkür edirik.

*Vaqif ŞADLİNSKİ,*
*professor*

Azərbaycan.- 2025.- 30 avqust (№183).- S.11.